*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 dekabr 2015-ci il № 92 (2008) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bizim aramızda dostluğa, qardaşlığa, qarşılıqlı etimada əsaslanan münasibətlər yaranıb

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 28-də Belarus Respublikasına rəsmi səfəri başa çatıb.***

***Birgünlük səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 28-də Minskdə rəsmi qarşılanma mərasimi oldu. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.***

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olub. Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşdə elm, yüksək texnologiyalar, maşınqayırma sənayesi, beynəlxalq təşkilatlarda və digər sahələrdə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olundu. Görüşdə dövlət başçıları çıxış etdilər.

Dövlətimizin başçısını səmimi salamlayan Belarus Prezidenti Aleksandr Lukaşenko Belarus-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olduğunu bildirdi, çətin vaxtda ölkəmizin Belarusa göstərdiyi köməyi unutmadıqlarını vurğuladı.

Qonaqpərvərliyə görə Belarus Prezidentinə təşəkkür edən Azərbaycan Prezidenti İlham Əliyev iki ölkə arasında münasibətlərin möhkəm dostluğa əsaslandığını və illərin sınağından çıxdığını söylədi. "Ölkələrimiz arasında münasibətlər həqiqətən ən yüksək səviyyədədir. Siz tamamilə haqlısınız, biz buna nail olmaq üçün uzun yol keçmişik. Lakin 10 ildən bir qədər çox əvvəl başlanmış bu cür fəal əməkdaşlıq illərində, mənim fikrimcə, bir-birimizi müxtəlif vəziyyətlərdə artıq yetərincə sınamışıq. Münasibətlərimizin möhkəmliyini, etibarlılığını sınamışıq və heç vaxt bir-birimizi naümid qoymamışıq. Buna görə biz bu gün bir-birimizə inanırıq və sənədlərin altındakı imzalarımız kimi, sözlərimiz də böyük sanbala malikdir".

Bundan sonra Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi baş tutdu.

Azərbaycan Respublikasının Prezidenti ilə Belarus Respublikası Prezidentinin Birgə Bəyannaməsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko imzaladılar.

"Azərbaycan Respublikası və Belarus Respublikası arasında 2025-ci ilədək sosial-iqtisadi əməkdaşlıq" haqqında müqaviləni Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Belarus Respublikası Baş nazirinin müavini Vladimir Semaşko imzaladılar.

"Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında məcburi dövlət sosial sığortası sahəsində əməkdaşlıq" haqqında Protokolu Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Belarus Respublikasının əmək və sosial müdafiə naziri Mariyanna Şotkina, "Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə Belarus Milli Elmlər Akademiyası, Belarus Respublikası Fundamental Tədqiqatlar Fondu arasında əməkdaşlıq haqqında" Sazişi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə və Belarus Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin sədri Vladimir Qusakov imzaladılar.



Belarus Prezidenti Aleksandr Lukaşenko ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrin möhkəmlənməsinə və inkişafına verdikləri töhfəyə görə Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubova və "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Xanlar Fətiyevə Belarus Respublikasının "Şərəf" ordenini təqdim etdi.

İmzalanma mərasimindən sonra dövlət başçıları mətbuata birgə bəyanatlarla çıxış ediblər.

Belarus Prezidenti çox səmərəli və məhsuldar danışıqlar aparıldığını, iki ölkə arasında münasibətlərin strateji xarakterini təsdiq etdiklərini vurğuladı. O, hər iki tərəfin birgə istehsal güclərini artırmaqda, Azərbaycanda yığılan texnikanın model sırasını genişləndirməkdə, habelə Azərbaycanda yerli detallardan və dəstləşdirmə materiallarından istifadə edilməklə bizim şirkətlər tərəfindən yeni kooperasiya istehsalatları yaradılmasında maraqlı olduğunu bildirdi.

Cənab Lukaşenko, həmçinin, əməkdaşlığın yeni istiqamətlərinin - informasiya texnologiyaları, nano-biotexnologiyalar sahəsində, hərbi-sənaye kompleksi, elmi tədqiqatlar sahəsində əməkdaşlıq istiqamətlərinin müəyyən edildiyini söylədi.

İki dövlət arasında müxtəlif istiqamətlər üzrə gələcək inkişafı müəyyən edəcək mühüm sənədlərin imzalandığına diqqət çəkən dövlətimizin başçısı dedi: "Prezidentlər tərəfindən Birgə Bəyannamə imzalanmasını xüsusi qeyd etmək istərdim. Bu Bəyannamə bizim həyat fəaliyyətimizin demək olar ki, bütün sahələrini əhatə edir. Orada bizim bir-birimizi daim dəstəklədiyimiz beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyətimiz barədə də danışılır. İqtisadi, siyasi əməkdaşlıq, humanitar, sənaye istehsalı, hərbi-sənaye sahələrində əməkdaşlıqdan bəhs edilir. Bizim aramızda bütün bu istiqamətlər üzrə çox sıx münasibətlər, dostluğa, qardaşlığa, qarşılıqlı etimada əsaslanan münasibətlər yaranıb".

İqtisadi sahədə gələcək qarşılıqlı fəaliyyətin yollarının müəyyən olunduğunu vurğulayan Azərbaycan Prezidenti iki ölkə arasında əmtəə dövriyyəsini xeyli artıra biləcək layihələrin də çox ətraflı müzakirə edildiyini söylədi: " Biz qarşılıqlı ticarətə daha artıq diqqət yetirməliyik, o cümlədən başqa ölkələrdən idxal etdiyimiz malları Belarusdan Azərbaycana, Azərbaycandan Belarusa idxal etməliyik. Müştərək istehsalatlar yaradılmasının artıq yaxşı tarixi var. Gəncə zavodu buna nümunədir, orada çox qısa müddətdə, bir ildən az vaxtda Belarus texnologiyaları üzrə istehsal qaydaya salınıb. Bu gün həmin zavod Azərbaycan ərazisində mühüm sənaye obyektidir.

Biz Azərbaycanda Belarus texnologiyaları əsasında başqa istehsalatlar yaradılması məsələlərini, həmçinin, Belarusda Azərbaycanın kənd təsərrüfatı məhsullarının emal edilməsi üzrə istehsalatlar yaradılmasını nəzərdən keçirməyə hazırıq. Başqa sözlə desək, iqtisadi əlaqələrin möhkəmlənməsi, biznes strukturlarının fəal qarşılıqlı əlaqəsi üçün çox möhkəm siyasi baza vardır".

Mətbuat konfransı başa çatandan sonra Belarus Prezidenti Aleksandr Lukaşenkonun adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, həmçinin, Belarus Dövlət Böyük Vətən Müharibəsi Tarixi Muzeyi ilə tanış oldu. Azərbaycan Prezidentinə muzey haqqında ətraflı məlumat verildi. Bildirildi ki, muzey 1944-cü il oktyabrın 22-dən Minskdəki Azadlıq meydanında müharibə illərində ziyan görməmiş "Həmkarlar Evi"ndə fəaliyyətə başlayıb. Orada Böyük Vətən müharibəsi illərinin hərb tarixinə aid çox dəyərli eksponatlar saxlanılır. Ümumi sahəsi 4200 kvadratmetr olan muzeydə 10 ekspozisiya zalı və 8 mindən çox ekspozisiya materialı var. Fondu 28 kolleksiya və 144 mindən çox müxtəlif əşyalardan, o cümlədən foto, sənəd, məktub və Böyük Vətən müharibəsi iştirakçılarının şəxsi əşyalarından ibarət olan muzey daim yeni eksponatlarla zənginləşdirilir.

Muzeydə faşizm üzərində ümumi Qələbənin qazanılmasında və Belarusun faşist işğalçılarından azad olunmasında Azərbaycan xalqının qəhrəman oğullarının böyük şücaətini əks etdirən eksponatlar nümayiş etdirilir. Brest qalasının müdafiəsi zamanı da azərbaycanlılar qəhrəmanlıqları ilə seçiliblər.

Muzeydə Belarusdakı partizan hərəkatında iştirak edən azərbaycanlıların göstərdikləri şücaətlər barədə də ətraflı məlumat verilir. Həmyerlilərimiz Ələkbər Əliyev və Məmməd Məmmədov partizan hərəkatında xüsusi qəhrəmanlıqlar göstəriblər. Muzeydə Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin rəşadəti haqqında da məlumat verilir. Hazırda Minskdə onun adını daşıyan küçə var.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin bu muzeylə tanışlığından bəhs edən fotoşəkillərə baxdı. Ümummilli lider 1978-ci ilin dekabrında Belarus SSR-in və Kommunist Partiyasının yaradılmasının 60 illiyi münasibətilə keçirilən tədbirlər çərçivəsində rəsmi nümayəndə heyətinin rəhbəri kimi bu muzeydə olub və xatirə kitabına ürək sözlərini yazıb.

Ulu öndərin muzeylə tanışlığını əks etdirən fotoşəkillər dövlətimizin başçısına hədiyyə olundu.

Muzeydəki "Qələbə" zalında Azərbaycanın səkkiz qəhrəman oğlunun - Sovet İttifaqı qəhrəmanlarının adları qızıl hərflərlə həkk olunub. Onlar Belarusun işğaldan azad olunmasında mərdlik və qəhrəmanlıq göstəriblər. Onların arasında iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun da adı var. O, Smorqon şəhərinin fəxri vətəndaşı adına layiq görülüb, Vileyka şəhərində şərəfinə abidə ucaldılıb. Hər iki şəhərdə Həzi Aslanovun adını daşıyan küçələr var. Muzeydə Həzi Aslanovla bağlı kitablar da sərgilənir.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

Fəxri qarovul dəstəsi düzülmüş Minskin Milli Aeroportunda Prezident İlham Əliyevi Belarusun yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

**AZƏRTAC-ın materialları əsasında**

## Mövlud Çavuşoğlu:

# Azərbaycanla birgə layihələrimiz uğurla icra edilir

***Türkiyə ilə Azərbaycan arasında əlaqələr bütün sahələrdə yüksək səviyyədədir. Ölkələrimizin birgə layihələri müvəffəqiyyətlə icra edilir.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu noyabrın 27-də Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovla görüşdən sonra keçirilən birgə mətbuat konfransında deyib.

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsindən bəhs edən M.Çavuşoğlu bildirib ki, Türkiyədə layihəni icra edən şirkətin üzləşdiyi hüquqi problemlə əlaqədar bir qədər yubanma oldu. Qısa vaxtda bu məsələ həllini tapacaq. Nazir bildirib ki, ölkələrimizin regionda böyük önəmi var.

Mövlud Çavuşoğlu qeyd edib ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasındakı üçtərəfli əməkdaşlıq mexanizmləri də uğurla davam etdiriləcək. Gələn il Türkiyə, Azərbaycan, Türkmənistan xarici işlər nazirlərinin görüşü də baş tutacaq.

Nazir bütün məsələlərdə, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsində Türkiyənin Azərbaycanın yanında olduğunu deyib. O bildirib ki, Türkiyə problemin həlli məsələsinə hər zaman konstruktiv şəkildə dəstək verir.

Elmar Məmmədyarov Azərbaycan ilə Türkiyə arasında əlaqələrin inkişafı ilə bağlı türkiyəli həmkarının fikirlərini bölüşdüyünü bildirib. O qeyd edib ki, ilin sonunadək Tbilisidə Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin görüşü və onların Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin gedişi ilə yerində tanış olmaları barədə razılıq əldə edilib. Nazir bu layihənin ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafında mühüm rol oynayacağını diqqətə çatdırıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların son vəziyyəti barədə Mövlud Çavuşoğlunu məlumatlandırdığını söyləyən Elmar Məmmədyarov bildirib ki, ən böyük problem torpaqların işğal altında qalmasıdır. Bu, təhlükəsizlik baxımından bütün regiona problem yaradır.

**AZƏRTAC**

# Avstraliya hökuməti Dağlıq Qarabağın işğalına son qoyulmasına çağırır

***"Biz Ermənistan və Azərbaycan hökumətlərini bir araya gələrək, münaqişəyə və Dağlıq Qarabağın işğalına sülh yolu ilə son qoymağa çağırırıq". Bu sözləri Avstraliya xarici işlər naziri Culia Bişop parlamentin üzvü, Avstraliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Luke Simpkinsin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə hökumətin mövqeyi ilə əlaqədar sualını cavablandırarkən deyib.***

Bu barədə Azərbaycanın Avstraliyadakı səfirliyinin yaydığı məlumatda bildirilir.

Parlamentin noyabrın 30-da keçirilən iclası zamanı L.Simpkins xarici işlər naziri xanım C.Bişopa müraciət edərək deyib ki, Nümayəndələr Palatasına üzv seçildiyi dairədəki Azərbaycan və türk icmalarının üzvləri Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ vilayəti və ona bitişik rayonların işğalına Avstraliya hökumətinin mövqeyini müəyyənləşdirməyi xahiş ediblər. L.Simpkins nazir C.Bişopdan həmin məsələyə Avstraliya hökumətinin mövqeyini açıqlamasını xahiş edib.

Sualı cavablandıran xanım C.Bişop əvvəlcə L.Simpkinsə deputat seçildiyi ərazidəki etnik qruplara göstərdiyi ardıcıl dəstəyə görə minnətdarlığını bildirib. Sonra vurğulayıb ki, Avstraliya hökuməti bütün dünyada suveren ölkələrin ərazilərinin qeyri-qanuni işğalını mühakimə etmək siyasətinə sadiqdir. Buna nümunə olaraq, Rusiya tərəfindən Ukraynanın suverenliyinin pozulması və Krımın işğalını göstərmək olar. Tamamilə buna uyğun olaraq, Avstraliya hökuməti Azərbaycanın suverenliyini tanıyır. Dağlıq Qarabağı isə müstəqil dövlət kimi tanımır. Eyni zamanda, Avstraliya hökuməti problemin həlli ilə məşğul olan Rusiya, Fransa və ABŞ-ın həmsədrlik etdiyi və Azərbaycan, Ermənistan, Türkiyə və Belarusun üzvü olduğu Minsk qrupunun fəaliyyətini dəstəkləyir. Bu, bizim ardıcıl mövqeyimizdir və biz Ermənistan və Azərbaycan hökumətlərini bir araya gələrək, münaqişəyə və Dağlıq Qarabağın işğalına sülh yolu ilə son qoymağa çağırırıq.

**AZƏRTAC**



## Döyüş hazırlığı

# Peşəkarlıq müvəffəqiyyətin açarıdır

***Hərbi əməliyyatlar zamanı artilleriyanın əhəmiyyəti misilsizdir və əbəs yerə onu müharibənin Allahı adlandırmırlar. O da şübhəsizdir ki, vuruşda qələbə qazanmaq əzəmətli topları hərəkətə gətirən və düşmənin başına od yağdıran, onun səngər və sədlərini "şumlayan", onu silahını atıb qaçmağa məcbur edən hərbi qulluqçulardan çox asılıdır. Artilleriya o zaman düşmən üçün ölüm kabusuna çevrilir ki, topçular öz peşələrinə mükəmməl yiyələnmiş olsunlar.***

Bəs "N" hərbi hissəsinin artilleriyaçıları bu gün hansı qayğılarla yaşayırlar?

Əvvəlcə qeyd edim ki, hərbi hissənin döyüş yolu Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı və Silahlı Qüvvələrimizin formalaşdığı dövrə təsadüf edir. Qarabağ uğrunda Ermənistan silahlı birləşmələrinə qarşı aparılan hərbi əməliyyatlarda hərbi hissənin artilleriya bölmələri də iştirak edib və düşmənə zərbələr endirib. Hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin yaxınlığında şəhid topçulara həsr edilmiş abidə dediklərimizə sübutdur. Qarabağ uğrunda göstərdikləri qəhrəmanlığa görə kapitan Vahid Quliyev Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, dörd nəfər "Azərbaycan Bayrağı" ordeni ilə, dörd nəfər isə döyüşlərdə fərqləndiklərinə görə medallarla təltif edilib.

Döyüşlərdə hərbi hissənin topçuları da Vətən uğrunda canlarını fəda ediblər. 1992-ci il avqustun 24-də Ağdərə rayonunun Aterk kəndi uğrunda gedən döyüşlərdə Rövşən Binnətov hərbi hissənin ilk şəhidi oldu. Həmin il oktyabrın 23-də Füzuli rayonunun Dilağarda kəndi uğrunda gedən döyüşlərdə isə divizion komandirinin şəxsi heyətlə iş üzrə müavini leytenant Azər Fazilov düşmən snayperinin gülləsinə tuş gələrək qəhrəmancasına həlak oldu. Ümumiyyətlə, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə hərbi hissənin 5 zabiti,16 əsgəri şəhid olub və 2 nəfər əsgər isə itkin düşüb. Onların xatirəsi hərbi hissədə həmişə uca tutulur.

Bu gün şəxsi heyət hərbi hissənin keçmişinə və ənənələrinə hörmətlə yanaşaraq döyüş və mənəvi-psixoloji hazırlığını artırmaqla məşğuldur. İlin sona çatmasına az qalmasına baxmayaraq, divizionlarda və batareyalarda döyüş hazırlığı tədbirləri əvvəlki qaydada keçirilməkdədir.

- Bu ilin əvvəlindən Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov döyüş hazırlığının yüksəldilməsini qarşıya başlıca məqsəd qoymuşdu, - zabit Rasət Şirinov bizimlə söhbətində dedi. - Artilleriyaçıların da peşəkarlığının yüksəldilməsi üçün əlimizdən gələni etməyə çalışmışıq. Döyüş hazırlığı planında nəzərdə tutulmuş bütün tədbirlər qrafikə uyğun olaraq keçirilməkdədir. Çöl məşğələləri, təlimlər vaxtında keçirilib. Bir sözlə, hesab edirəm ki, şəxsi heyət artilleriyaçı peşəsinə yüksək səviyyədə yiyələnib.

Hərbi hissədə öyrəndik ki, gündəlik döyüş hazırlığı məşğələlərində topçular ixtisas, taktiki və atış bacarıqlarını artırmaqla məşğul olublar. İlin əvvəlindən fərdi, manqa, taqım, batareya hazırlığı yerinə yetirilib. Artilleriyaçılar bu məşğələlərdə silahların taktiki-texniki xüsusiyyətlərini həvəslə öyrəniblər və heyətdən tutmuş diviziona qədər vahid mexanizm kimi hərəkətetmə vərdişlərini mənimsəyiblər.

Bir müddət öncə artilleriyaçılar taktiki təlimlərdə iştirak ediblər və yüksək nəticə göstəriblər. Təlim həm də ötən dövrdə həyata keçirilən tədbirlərin səmərəliliyini yoxlamaq üçün bir sınaq xarakteri daşıyır. Gündəlik dərslərdə divizionlar, batareyalar nəyə nail olublarsa, təlim meydanında aşkar edilir. Təlimin yekununda hərbi hissə komandirinin müvafiq əmrinə əsasən, fərqlənmiş bölmə, heyət və hərbi qulluqçular mükafatlandırılıblar. Qeyd etmək lazımdır ki, təlimə cəlb edilmiş bölmələrin hamısı yüksək döyüş hazırlığı nümayiş etdirməyi bacarıb.

Döyüş atışları icra edilərkən şəxsi heyət peşəkarlıq nümayiş etdirdi, verilən hədəflər bacarıqla məhv edildi. Yuxarı komandanlıq şəxsi heyətin göstərdiyi nəticələrdən razı qaldı.

Nümunəvi xidmətilə şəxsi heyət üçün örnək sayılan zabit, gizir və əsgərlər əslində hərbi hissədə çoxdur. Bununla belə komandirlər onların ən yaxşılarının adlarını vurğuladılar. Bəli, nümunəvi xidmətilə seçilən zabitlərdən Ramiz Eminov, Döyüş maşını komandiri gizir Cavid Mirzəyev, top komandirlərindən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Xəzər Bədirli və Vüsal Məmmədov öz intizamları ilə seçilir, vəzifələrinə həmişə məsuliyyətlə yanaşır və silahdaşlarına əsl nümunə göstərirlər.



- Döyüş hazırlığı dərslərində, məşq və təlimlərdə əgər şəxsi heyət yüksək nailiyyətlər əldə edirsə, ixtisas vərdişlərinə və taktiki hazırlığa yiyələnirsə, yəni öz gücünə və döyüş bacarığına inam qazanırsa, deməli, həm də mənəvi-psixoloji hazırlığını artırır, - zabit Xoşbəxt Mahmudov bildirir. - Bu cəhətlər isə hazırlıqlı, təcrübəli zabit, gizir və əsgərlərimizin zəhməti, işgüzarlığı ilə qazanılır.

Xalid Qafarov, Rahil Dadaşov, Niyaməddin Tağıyev təlimlər zamanı hazırlıqlı zabit olduqlarını göstərdilər və artilleriya bölmələrini yüksək bacarıqla idarə etdilər.

Döyüş zamanı aparıcı qüvvəyə çevrilən top komandirlərinin də nümunəvi fəaliyyətini qeyd etməmək olmaz. Onlar ötən müddət ərzində, doğrudan da, öz hərbi sənətlərinə yetərincə yiyələniblər və peşəkar artilleriyaçılara çevriliblər.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Təmas xəttində monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq dekabrın 2-də Ağdam rayonunun Orta Qərvənd kəndi yaxınlığındakı təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Piter Svedberq keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov, Jiri Aberle və Saymon Tiller keçirəcəklər.

### Əsgərimiz şəhid olub

Noyabrın 30-da qoşunların təmas xəttində düşmənlə döyüş toqquşmasında Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər İsmayılov Elşən Aydın oğlu şəhid olub.

Ermənilərin növbəti təxribatı nəticəsində şəhid olan hərbi qulluqçu Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, ölümündən sonra təltif edilməsi üçün "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalına təqdim olunub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Müdafiə Nazirliyi bildirir ki, qoşunların təmas xəttində vəziyyətin növbəti dəfə gərginləşdirilməsinə görə məsuliyyət bütünlüklə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür, bu qanlı provokasiya nəticəsiz qalmayacaq və düşmənə vurulacaq zərbə sarsıdıcı olacaqdır.

### Düşmən tərəfinin təxribatı nəticəsində bir hərbi qulluqçumuz yaralanıb

Düşmənlə döyüşdə Silahlı Qüvvələrimizin hərbi qulluqçusu, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nəsibov Bəhruz Sahib oğlu sol qolundan yüngül yaralanıb.

İlkin tibbi yardım göstərildikdən sonra yaralı əsgər tibb müəssisəsinə təxliyyə edilib, sağlamlığına heç bir təhlükə yoxdur və həkimlərin nəzarəti altındadır.

Müdafiə Nazirliyi bildirir ki, ordumuz bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir və düşmənin istənilən hərəkətinin qarşısını qətiyyətlə almağa hazırdır.

### Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirdə iştirak edəcəklər

Noyabrın 30-dan dekabrın 4-dək Sarayevo şəhərində (Bosniya və Herseqovina) NATO-nun 2-ci regional kollektiv təlim planlaşdırma kursu, noyabrın 30-dan dekabrın 5-dək Belqrad şəhərində (Serbiya) ATƏT-in nazirlər şurasının növbəti görüşü, noyabrın 30-dan dekabrın 11-dək Vişkov şəhərində (Çexiya Respublikası) sülhü dəstəkləmə əməliyyatlarının planlaşdırılması və qiymətləndirilməsi üzrə təlim kursu keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin də nümayəndələri iştirak edəcəklər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***1 dekabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 93 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikası Qazax rayonunun Quşçu Ayrım kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tərtər rayonunun Göyarx, Yarımca, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Kəngərli, Sarıcalı, Nəmirli, Şuraabad, Qaraqaşlı, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 98 dəfə atəş zərbəsi endirib.

# Döyüş ənənələrinə sadiq oğullar

***Hər bir əsgərin amalı erməni işğalı altında olan torpaqları azad etməkdir. Bunun üçün onlar əllərindən gələni etməyə hazırdırlar ki, təki yurd yerlərimiz, işğalda olan torpaqlarımız azad olunsun.***



Bu yaxınlarda cəbhə bölgəsindəki "N" hərbi hissəsində oldum. Burada əsgərlərin döyüş vərdişlərini artırmaq üçün çöl məşğələsinə cəlb olunduğunu gördüm. Həmsöhbət olduğum zabit Eltəkin Mustafayev bölmədə yeni xidmətə başlayıb. Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunu olan gənc zabitin xidmətə məsuliyyətini onun fəaliyyətindən də hiss etmək olurdu. Arzusu, məqsədi orduda xidmətini davam etdirməkdi. Bunun üçün də hərbi nizamnamələri, zabitə xas olan təcrübi vərdişləri həvəslə öyrənir.

Zabit E.Mustafayev söhbətimizdə əlavə etdi ki, əsgərlər günün nizam qaydalarına uyğun olaraq məşğələ yerində məşqlərini davam etdirirlər. Təlim yerində diqqətimi çəkən pulemyotçuya yaxınlaşıram.

- Əsgər Azad Zamanlı, - deyə özünü təqdim etdi.

- Əsgər, istifadəndə olan silah haqda nə bilirsən?

- Daşıdığım pulemyot düşmənin canlı qüvvəsini, yüngül zirehli texnikasını və alçaqdan uçan hava hədəflərini məhv etmək üçündür, - deyə əsgər cavab verdi.

O, silahdan bacarıqla istifadə edə bildiyini, dəfələrlə atış meydanında şərti hədəfləri müəyyən məsafədən vurduğunu dedi. Əsgərə görə, onun qarşısında dayanan mühüm tapşırıq erməni tapdağı altında olan yurd yerlərimizin azad edilməsi uğrunda başlayacaq döyüşdə iştirak etməkdir. Həmişə döyüşə hazır olduğunu söyləyən əsgər A.Zamanlı Qaradağ rayonunun Ələt qəsəbəsində dünyaya göz açıb, amma Vətəninin müqəddəs bir parçası olan doğma Qarabağın azadlığı üçün canından keçməyə hazırdı.

Əslən Quba rayonundan olan əsgər Sərxan İsmayılov da layiqincə xidmət edən döyüşçülərdəndir. Komandir də onun bacarıqlı əsgər olduğunu, üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəldiyini bildirdi. Sərxan nizam-intizamına görə də bölmədə fərqlənir. Onun da başlıca məqsədi və ən böyük arzusu ölkəmizin ərazi bütövlüyünün tezliklə bərpa olunmasıdır. Xidmət müddətinin başa çatmasına az qalsa da, Ali Baş Komandanın döyüş əmrinə hər an hazır olacağını dedi.



Vətənin layiqli müdafiəçilərindən biri də Sərxan Abbaslıdır. Yeniyetmə çağlarında idmana maraq göstərən Sərxan bu gün idmanın necə böyük əhəmiyyət daşıdığını başa düşür və döyüşçü kimi formalaşmasında əhəmiyyət kəsb etdiyini bildirir. Deyir ki, hər dəfə təlimə çıxanda idman vərdişləri köməyinə çatır. Əsgərə görə, idman hər bir kəsin sağlamlığında mühüm rol oynadığı kimi, döyüşçü kimi yetişməkdə də mühüm əhəmiyyətə malikdir.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Hazırlıqlı topçular

***Topçular hərbi hissənin təlim meydanında məşq edirdilər. Kapitan Ramin Əliyevlə birlikdə onların yanına gəldik. Bir az kənarda dayanıb heyət nəfərlərinin məşğələlərini izlədik. Şəxsi heyət zabitin verdiyi komandaları bacarıqla yerinə yetirərək, artilleriya qurğusunu təyin olunan vaxt çərçivəsində "döyüş" və "səfər" vəziyyətinə gətirirdi. Hiss olunur ki, əsgərlər vəzifə borclarının öhdəsindən bacarıqla gəlirlər.***

Baş leytenant Asim Ağakərimov heyət nəfərlərinin hazırlıqlı olduğunu gördükcə qürur hissi keçirir, elə bil ürəyi dağa dönürdü.

- Heyət nəfərlərinin belə hazırlıqlı olması dərs və məşğələlərdə qazanılan əsas uğurumuzdur, - deyir baş leytenant. Heç kəs əldə olunan uğurlarla kifayətlənmir. Sözünə davam edən zabit daha sonra dedi ki, heyət nəfərlərinin bəziləri ordu sıralarında ilk addımlarını atmalarına baxmayaraq, onlar döyüş vərdişlərini tez bir zamanda mənimsəyiblər. “Bir müddət əvvəl irimiqyaslı təlimlərdə iştirak etdik. Gözlənildiyi kimi qarşımıza qoyulan tapşırıqları yerinə yetirərək böyük uğur qazandıq. İnanıram ki, belə yüksək hazırlıq düşmən üzərində qələbəmizi təmin edəcəkdir”.

Top komandiri Rasim Məmmədli isə məşğələnin mövzusundan ətraflı söz açdı. Bildirdi ki, bugünkü dərsin mövzusu "Topun atışa və marşa hazırlanması"dır. Məşğələ başlanan kimi mövzunu şəxsi heyətə ətraflı izah edir, onlara lazımi vərdişləri aşılayıram. Bununla da əsgərlərimiz döyüş vərdişlərinə dərindən yiyələnirlər. Müşahidələrim deməyə əsas verir ki, heyət nəfərləri hərbi biliklərə hərtərəfli yiyələniblər.

Top komandiri ilə söhbət zamanı öyrəndim ki, heyət nəfərlərindən Rüfət İsgəndərli, Asim Hüseynov, Ağa Babayev, Vidadi Əhmədov, Simran Əliyoldaşov və başqaları vəzifələrinin öhdəsindən bacarıqla gəlirlər. Onların hər biri döyüşdə uğur qazanmağa qadirdirlər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**



## Ordu və cəmiyyət

# Hamı inanır, hamı güvənir

***Horadizdə möhtəşəm bir tədbirdəydim: "Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri!". Tədbirə gələnlərin sırasında qoca da vardı, gənc də, yeniyetmə də, qadın da. Onları payızın yağışında, çiskinində bura çəkib gətirən nə idi?***

Gələnlər ürəyinin hökmüylə gəlmişdi. Hər birini torpağa sayğı gətirmişdi...

Horadizin 22 il əvvəli düşür yadıma. Döyüşlər gedirdi. Ermənilər Horadizi odlara qalamışdı, daşı daş üstə qalmamışdı Horadizin. Yüzlərlə əsgərimiz şəhid olmuşdu. 1994-cü ilin yanvarın əvvəllərində ümummilli lider Heydər Əliyevin sərkərdəlik məharəti düşmənin hücumunu dayandırdı, əks-hücumla Horadiz də, neçə-neçə kənd də işğaldan azad edildi. Tədbirə gələnlərin sırasında o günü görənlər də var...

Horadiz şəhər kimi yenidən quruldu. İndi bütün vacib infrastrukturlara malikdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi "Biz Horadiz şəhərinin timsalında dirçəlməkdə olan Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu, ulu öndər Heydər Əliyevin siyasətini görürük" - fikrinin təzahürüdür Horadiz. Təşkilatçılar da tədbirin məhz burda keçirilməsini bu baxımdan daha məqsədəuyğun bilmişdi...

Həmid kişinin yaşı 80-i haqlayır. Horadizin işğalını da görüb, azad edilməsini də, şəhər kimi yenidən qurulmasını da.

- Horadiz döyüşlərində oğlum şəhid oldu. Oğlumun əvəzindən döyüşmək istədim. Xəstəlik aman vermədi, - kişinin dodaqlarında közə dönən təəssüfü sezmək çətin deyil. - Nəvəm böyüdü. İndi əsgərdi. Mənim bacarmadığımın öhdəsindən gələcək. Torpaqlarımızı işğaldan azad edəcək əsgərlərin sırasında nəvəmin də olmasını elə arzulayıram ki!..

Bu, adi istək deyildi. Bu, həyat amalıydı.

- Ölkə rəhbərinə mən də inanıram, əsgərlərimizə mən də güvənirəm. Torpaqlarımızın işğaldan azad ediləcəyi günü görüm, ondan sonra bir arzumanım qalmaz...

Kişinin söhbətini eşidən gənc duyğulanmışdı deyəsən. Baxışlarının dərinliyindən dikələn çəkingən qəhər mənə tanış idi. Ezamiyyətlərdə, veteranlarla söhbətlərimdə vətənsevərlərin hamısının baxışlarında gördüyüm qəhər idi. Bizə yaxınlaşdı. Həmid kişini köksünə sıxdı. Nəsə demək istədi, deyə bilmədi. "O günü görəcəksən, baba. O günü tezləşdirəcəyik", - deyəcəkdi yəqin. Az sonra o cavandan eşitdiklərim ürəyimi dağa döndərdi: "Müdafiə naziri general-polkovnik Zakir Həsənov deyib ki, biz yaxın vaxtlarda ərazilərimizi işğaldan azad edəcəyik. Bu inama inanırıq, Azərbaycan əsgəri bu inamı gerçəkləşdirəcək. Məni də bura ölkə rəhbərinə inam, Azərbaycan əsgərinə güvənc gətirib.

Tədbirdə ağbirçək bir ana gördüm. Kövrəlmişdi. Gözlərini nizami yerişlə ötüb keçən əsgərlərdən çəkmirdi. "Ev-eşiyimizə, doğma ocağımıza qayıtmağımız sizin əlinizdədi, a bala. Tezləşdirin o günü", - kəlmələrinin ünvanı əsgərlərimiz idi...

Həmid kişinin timsalında yaşlıların, o cavanın timsalında çağırışçıların, adını öyrənə bilmədiyim ağbirçəyin timsalında ağbirçəklərin inamını, güvəncini məmləkətin inamı, güvənci bilirəm.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Məktəbin bayrağı "Heydər Əliyev zirvəsi"ndə

***2004-cü il. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəhbərliyi bu təhsil ocağının rəmzi bayrağının ulu öndərin adını daşıyan zirvədə dalğalandırılmasını qərara alıb. Tapşırığı kiçik tərkibli qrup yerinə yetirəcək. Bu, həm də hərbçilərin fiziki hazırlığının, psixoloji durumunun sınağıdı. Tərkib müəyyənləşdirilib, ilkin hazırlıq başa çatdırılıb...***

May ayının 4-ü. Qəlbi bir həvəsin, bir marağın, bir sevginin beşiyi olanların ürəyi Fəxri xiyabanda da, Şəhidlər xiyabanında da qədərsiz ehtiramın səmimiliyinə bələnib.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin bayrağını "Heydər Əliyev zirvəsi"nə çatdırmaq üç zabitə, altı kursanta tapşırılıb. Bu, könüllülük əsasında tapşırıqdı. Göy üzü üzə gülür. Bu bənzərsiz təbəssüm boy göstərmək istəyən bulud topalarını dağıdır.

Qrup zirvəni fəth etməyə yol almışdı. Duyumum pıçıldayır ki, qrupun üzvlərinin qəlbində qımıldanan həyəcan da bu təbəssümü görüncə sovuşub…

O gündən illər keçib… O günün qüruru da, təəssüratları da unudulan deyil...

Qrupun əksər üzvü ilə söhbətləşə bildim. Onlardan heç nə soruşmurdum. Sadəcə, həmin günü, həmin günün həyəcanlarını xatırlamasını xahiş edirdim. Bir anlığa susurdular, sonra həyəcan içində dillənirdilər:

- Bizi seçmişdilər, bizə etibar edirdilər. Bu, həm də hərbi əmr idi. Həvəslə gedirdik. Soyuq, çovğun olacağını da bilirdik, başqa təhlükələri də. Marağımızı da nəzərə alsanız, zirvəyə hansı istəklərlə getdiyimizi təsəvvür edə bilərsiniz.

Bu qrupa daxil edildiyimə görə taleyimdən razıyam. Son nəfəsiməcən xatırlayacağım anlara görə, etibara görə.

Yer səviyyəsindən az qala 3000 metr yüksəkliyə qalxmağın, həm də nəzərdə tutulan vaxtda çatmağın çətin olacağını bilsək də, həvəsimiz daha da kükrəyirdi. Saatlar nədi, anlar da ötüşmək bilmirdi. Bizə elə gəlirdi ki, zaman ləngiyir...

Ləzə kəndi uğur yolunun başlanğıcıydı və qrupun üzvləri mayor Səyyad Şəfiyev, mayor Timur Quliyev, kapitan Zal Həsənov, kursantlar Anar Məmmədli (I tabor), Bəhruz Sərifov (III tabor), Coşqun İsgəndərov (III tabor), Ramal Məmmədov (III tabor), Anar Abbasov (I tabor), Emil Dəmirov (II tabor) bu başlanğıcdan son anların sevincinə boylanırdı. O ana kimi alpinizmin nə olduğunu kitablardan, televiziya verilişlərindən bilənlər məktəbin idman kafedrasının müəllimi, bu sahədə istər nəzəri, istərsə də təcrübi vərdişləri olan mayor Səyyad Şəfiyevin söhbətini diqqətlə dinləyirdi. Bu başlanğıcdan 2750 metrlik yüksəkliyə yol alacaqdılar; hər birinin kürəyində 32-34 kiloqramlıq zəruri azuqə və müxtəlif əşyalar vardı. Sərin-sərin meh əsirdi. Ağacların budaqları ahəstəcə titrəyirdi…

Səyyad Şəfiyev öndəydi. Alpinizmin tələblərinə əməl etməklə aramla, tələsmədən irəliləyirdilər. Qızıldağ onların gəlişinə boylanırdı. "Heydər Əliyev zirvəsi"nə addım-addım yaxınlaşırdılar. Ürəkləri çəkib aparırdı onları. Onları bu ucalığa, dağın zirvəsinə çəkib aparan maraq biçimində sevgiydi, sevgidən boy göstərən vəzifə borcuydu…

Yuxarı qalxdıqca hava seyrəlir, oksigen azlığı hiss olunur. Səyyad Şəfiyev arada dönüb arxaya baxır, onunla daban-dabana gələnlərin qətiyyətini görüncə nəfəs dərib irəliləyirdi….

Orda olsaydım, dar macalda bir şeir pıçıldayardım:

Təbiət cığallıq fikrinə
düşüb,
Yox, yox, sıxa bilməz
qarlı dağ sizi.
Dağların könlünə görən
nə düşüb? -
Kim deyir ağ yollar
yoracaq sizi?

Sizə əl eləyən o zirvəyə
bax,
İndi dan sökülər, açılar
sabah.
Sönməz, sönən deyil
çatılan ocaq,
Qoymaz üşüməyə od-
ocaq sizi.

"Cəngi"yə köklənib
göylərin simi,
Tarixə yazacaq hər ötən
dəmi...
Bağrına basacaq balası
kimi,
Heydər zirvəsində bu
bayraq sizi!

Təbiətlə insanın mübarizəsidi alpinizm; alpinistlərimiz (onları belə adlandırmağa haqqımız çatır!) anların ömrünün bunca uzanmasından usanan ürəklər zirvəyə can atır…

Hava şəraiti elə bil alpinistlərin qəsdinə durub…

Dağ massivlərində hərəkətin çətinliyi, təbii ki, öz təsirini göstərirdi...

Həvəs dözümün, dözüm arzunun əllərindən yapışıb zirvəyə çəkməkdəydi…

Dağın öz qanunları var. Bu qanunlara ciddi əməl etməmək faciə ilə nəticələnə bilər; qədərsiz ehtiyatlı olmaq gərəkdi. Külək tutmayan bir kahaya sığınmışdılar. Kirpik kirpiyə can atırdı, kirpik kirpiyə yaxın gəlmirdi. Gecə uzun gecəydi. Dan yeri sökülmək bilmirdi...

May ayının 7-si. Hərbçi-alpinistlər "Heydər Əliyev zirvəsi"nin üç addımlığındaydı; yorğunluq həyəcanı bir az da artırmaqdaydı…

Səyyad Şəfiyev narahatlıqla qrupun üzvlərini süzürdü. Heç nə demirdi. Heç nə demək istəmirdi. Bu ucalıqda onların özlərinin duyumuna sığınmasını istəyirdi. O ucalıq adi ucalıq deyildi. O ucalıq cəsarətlə, qətiyyətlə, iradəylə fəth olunmuş ucalıq idi. Bu ucalıq qrupun hər bir üzvünün ömürlüyünü dolğunlaşdıracaqdı. İllər keçəndən sonra qrupun hər bir üzvü həmin günə görə taleyinə şükürlər oxuyacaqdı; bu ucalığa çıxmaq hər kəsə nəsib olmur axı…

Saat 9-u gözləməyə səbrləri çatmadı.

Bu da təbiətlə insanın zirvədə təması!

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin bayrağı "Heydər Əliyev zirvəsi"ndə öz layiqli yerini tapmışdı!..

Hərbçi-alpinistlərin qüruruna, sevincinə nə soyuq, nə şaxta yaxın düşə bilirdi. Zabitlər, kursantlar məktəbin tarixinin bir səhifəsini "Heydər Əliyev zirvəsi"nə yazır. Zabitlərin də, kursantların da köksü ürəyinə darlıq eləyir…

Məktəbin bayrağı ucalıqlarda böyük öndər Heydər Əliyevin adı ilə yanaşı qürurla dalğalanırdı!..

İndi də qürurla dalğalanmaqdadır! Daim dalğalanacaq da!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Həmkarların plenumu



***Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi cari ilin yekunlarına həsr olunmuş plenum keçirib. Bu dəfə plenum iştirakçıları ölkəmizin dilbər guşələrindən biri olan Lənkəran şəhərinə toplaşdılar. Əvvəlcə Lənkəranda hospitalın uzun illər rəisi olmuş tanınmış oftolmoloq, tibb xidməti polkovnik-leytenantı Şəmsəddin Talışinskinin məzarı ziyarət olundu.***

Müdafiə Nazirliyinin Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova bildirdi ki, onlar iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun Ev Muzeyini də ziyarət edəcəklər. Müdafiə Nazirliyinin hərbi hissə və təhsil müəssisələri həmkarlar ittifaqlarının sədrləri əfsanəvi qəhrəmanın vaxtilə yaşadığı evə gəldilər. Muzeyin elmi işçisi Cəmilə Şərifova qonaqları qəhrəman tankçıya məxsus eksponatlar və şəxsi əşyalarla tanış etdi. Məlumat verildi ki, Böyük Vətən müharibəsi illərində göstərdiyi igidliklərə görə 1942-ci ildə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən general-mayor Həzi Aslanovun 1944-cü ildə də ikinci dəfə bu ada layiq görülməsi haqqında Sovet rəhbərliyinin sərəncamı olub, lakin naməlum səbəblərdən sərəncam üzə çıxarılmayıb. Jurnalist-tədqiqatçı Musa Bağırovun gərgin araşdırmalarından sonra 1991-ci ildə əfsanəvi döyüşçünün ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı təsdiq olunub.

Daha sonra Lənkəran Tarix Diyarşünaslıq Muzeyinə gələn qonaqlar bölgənin tarixinə və etnoqrafiyasına aid eksponatlarla tanış oldular.

Günün ikinci yarısında plenum öz işinə başladı. Tədbiri açıq elan edən Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri A.Ağadadaşova yaradılan şəraitə görə Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin təşəkkürünü bildirdi.

Cari ildə ölkəmizdə həyata keçirilən mühüm layihələrdən və ictimai-siyasi hadisələrdən söz açan Abiyat Ağadadaşova ilk Avropa oyunlarında həmkarlar ittifaqı üzvlərinin fəal iştirakından bəhs etdi. Bu il noyabrın ilk günündə ölkə parlamentinə seçkilərin keçirilməsinin əlamətdar hadisə olduğunu plenum iştirakçılarının diqqətinə çatdıran Abiyat xanım Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyevin yenidən millət vəkili seçilməsi münasibətilə onu iştirakçılar adından təbrik etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda qazanılan nailiyyətlərdən danışan natiq Müdafiə Nazirliyinin rəhbərliyinin tez-tez cəbhə bölgəsində olduğunu, əsgər və zabitlərin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli işlərin görüldüyünü vurğuladı. "Komitəmizin fəaliyyəti çoxsahəlidir. Əsas vəzifəmiz İttifaq üzvlərinin sosial-iqtisadi mənafelərini və hüquqlarını müdafiə etmək, yeni təşkilatlar yaratmaq, kollektiv müqavilələrin icrasına nəzarət etmək, əməyin mühafizəsi, üzvlərin sağlamlıqlarının qayğısına qalmaq, asudə vaxtlarının səmərəli təşkil edilməsindən ibarətdir. Biz Birləşmiş Həmkarlar İttifaqı Komitəsi olaraq vaxtaşırı yerlərə gedir, təşkilatların bu sahədə gördükləri işləri nəzərdən keçirib tövsiyələrimizi veririk. Bəzi məsələlərin vaxtında həll edilməsi üçün nazirliyin müvafiq idarə rəhbərləri ilə görüşərək lazımi köməyimizi göstəririk", - deyə Abiyat xanım ötən ildə görülmüş işləri diqqətə çatdırdı.



- Son bir ildə 43 nəfərə sanatoriya və istirahətə yollayışların verilməsi tərəfimizdən təşkil olunub, - dedi komitə sədri. - Dövlət Sosial Müdafiə Fondunun dəstəyi ilə daha 66 nəfərə büdcə hesabına ailəvi-istirahət evlərinə və turist bazalarına yollayışlar verilib. Bundan əlavə, komitəyə təşkilatlardan vaxtaşırı maddi yardım üçün ərizələr daxil olub. Müraciətlərə baxılaraq doqquz ayda 51 nəfərə 4350 manat məbləğində yardım edilib. Daha 29 ailəyə 1370 manat məbləğində mükafat ayrılıb. Həmçinin, ehtiyacı olan ailə üzvlərinə, o cümlədən, ölkəmizin müxtəlif ali təhsil ocaqlarında oxuyan tələbələrə təqaüdlər təsis edilib. Bu il iyul ayında ittifaq üzvlərinin uşaqları üçün Nabranda yerləşən "Ülfət" istirahət mərkəzində on gün müddətində 88 nəfərin istirahəti təmin olunub.

Hesabat məruzəsində bildirildi ki, ötən ilin dekabrın 28-də yekunlaşan "Azərbaycan Ordusu" qəzetinin redaksiyası ilə birgə əsgərlər arasında Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş "Hərbi xidmət müddətində test"in, 9 noyabrda isə "Bayrağımız - milli qürurumuzdur" adlı yazı müsabiqəsinin qaliblərinin mükafatlandırılması da təşkil olunub. Silahlı Qüvvələrin yaradılmasının 97-ci ildönümünə həsr olunmuş Həmkarlar İttifaqı Komitəsinin və Gəncə qarnizonu Zabitlər Evinin birgə təşkilatçılığı ilə "Vətən uğrunda" hərbi vətənpərvərlik mahnı müsabiqəsi də uğurlu layihələrimizdən olub.

Plenumda iştirak edən Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik-leytenant Rövşən Qarayev həmkarlar ittifaqının keçirdiyi layihələri müsbət qiymətləndirərək, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından Abiyat xanıma və bütün ittifaq sədrlərinə təşəkkürünü bildirdi, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı. Plenum iştirakçılarını maraqlandıran maliyyə məsələləri ilə bağlı sualları nazirliyin Maliyyə və Büdcə İdarəsinin əməkdaşı polkovnik-leytenant Rəfail Xələfov cavablandırdı.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova fərqlənən təşkilat sədrlərinə fəxri fərmanlar və pul mükafatları təqdim etdi.

Sonda plenum iştirakçıları adından Müdafiə naziri general-polkovnik Zakir Həsənova müraciət qəbul olundu. Mülki işçilərə göstərilən qayğıya, onların sosial-məişət şəraitlərinin yaxşılaşdırılması üçün atılan addımlara görə nazirliyin rəhbərliyinə minnətdarlıq bildirildi.



**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# Mən əsgər atasıyam



Xoşbəxtlik ifadəsinin mahiyyətini hərə öz dünyagörüşünə görə izah edir.

Ata olmaq xoşbəxtlikdir. Cəmiyyətdə özünə münasib mövqe tutan övladın atasının xoşbəxtliyi yerəgöyə sığmır. Oğlu hərbi xidmətə çağırılan atanın qüruru bir ömrə bəs edər. Bu baxımdan mən xoşbəxt atayam. Oğlum Sadıq ali təhsil alıb, indi hərbi xidmətdədir. Andiçmə mərasimində oğlumun mətin yerişini gördüm, komandirlərinin razılığını eşitdim, sevincdən ürəyim dağa döndü. Yaxşı oğul təkcə atanın oğlu deyil, həm də Vətənin oğludur. Qürurlandım ki, mənim də oğlum Vətənin oğludur, Vətən borcunu yerinə yetirir.

Sadıq Kiyev Dövlət Universitetinin məzunudur. Hər tətilə gələndə mütləq Quba soyqırımı məzarlığını ziyarət edərdi. Sevinərdim ki, oğlum xalqımızın tarixinə biganə deyil. Tariximizi həvəslə oxuyurdu. Neçə yüzillərin o üzündə qalan hadisələrin bəzilərindən qürurlanırdı, bəzilərini oxuyanda qəzəbdən yumruqları düyünlənirdi. "Gülüstan" müqaviləsi, bir xalqın ikiyə bölünməsi onu necə hiddətləndirməyə bilərdi? Cavanşiri, Cavad xanı, Qarabağ müharibəsində şəhid olan oğulları özünə ideal bilirdi. Xalq şairi Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması Sadiqin vaxtaşırı oxuduğu əsərlərdən olub...

Sadıq hazırda hərbi xidmətdədir. İnanıram ki, o, nümunəvi xidməti ilə bizə başucalığı gətirəcək.

Atanın oğuldan istəyi nədi? Cəmiyyət üçün layiqli vətəndaş olmaq, yəni Vətənə gərəkli övlad olmaq. Bunun üçün onda geniş dünyagörüşü formalaşdırmaq lazımdır. Ailənin, məktəbin bu istiqamətdə başladığı işi hərbi xidmət davam etdirir. Həm də daha intensiv, daha məqsədyönlü şəkildə davam etdirir. Bu baxımdan, hərbi xidmət həqiqətən, həyat məktəbidir. Hərbi xidmətin oğlumun dünyagörüşünü mənim də, Vətənin də arzuladığı səviyyədə formalaşdıracağına əminəm.

Yadımdadır, dostlarımdan biri ondan "Böyüyəndə nəçi olacaqsan?" - soruşmuşdu. Onda Sadıq tərəddüd eləmədən "Əsl vətəndaş olacam" - demişdi. 15 yaşlı oğlanın bu cavabı mənə də, dostuma da könül xoşluğu vermişdi. Sadiq dediyinə əməl edir - Vətənin xidmətindədi. İnanıram ki, əsl vətəndaş olacaq!..

Ordumuzda həyata keçirilən genişmiqyaslı islahatlar, Müdafiə nazirinin Silahlı Qüvvələrin şəxsi heyəti ilə ön xətdə görüşməsi, bayram günlərində əsgərlərimizi ziyarət etməsi bir vətəndaş kimi məni də çox sevindirir. Sizin qəzetinizdə oxuduğum bir məqaləni xatırlayıram: "Ordu xalqın, xalq ordunun dayağı". Həqiqətən də belədir. Ordumuz müstəqilliyimizin, dövlətçiliyimizin dayağıdır. Və inanırıq ki, sülh danışıqları baş tutmasa, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Mütləq mənim oğlum da onların sırasında olacaq!

**Füzuli PƏNAHOV,**
**Quba şəhəri**

*Təşəkkür məktubu*

# Bərdə rayonu Vəliyevlər ailəsinə

Hörmətli Əbülfət müəllim!

Nəzərinizə çatdırırıq ki, oğlunuz Təbriz əsgəri xidmətini bizim hərbi hissədə keçirir.

Təbriz özünü qısa müddətdə nizam-intizamlı, qorxmaz, cəsur və igid Azərbaycan əsgəri kimi göstərmişdir. Ona həvalə olunmuş silahı mükəmməl öyrənir, azğın düşmənin məhvi üçün onun imkanlarından məharətlə istifadə etməyə hazırdır.

Təbriz hərbi hissədə vətənpərvərliyi, qayğıkeşliyi ilə yoldaşlarının və hərbi hissə komandanlığının dərin hörmətini qazanıb. Xidmətinə və nümunəvi intizamına görə dəfələrlə komandanlıq tərəfindən təşəkkürə layiq görülüb.

Təbriz müstəqil Azərbaycanın dövlət mənafeyini müqəddəs tutaraq torpaqlarımızın bütövlüyü uğrunda öz əsgəri borcunu layiqincə yerinə yetirir.

Vətənimiz Azərbaycanın etibarlı müdafiəçisi olan Təbriz kimi oğul tərbiyə edib böyütdüyünüzə görə sizə təşəkkür edir, möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, halal və nəcib əməyinizdə uğurlar arzulayırıq.

Təbriz kimi övladınız olduğu üçün fəxr edə bilərsiniz.

Sağ olun.

**Hörmətlə:**
**polkovnik**
**Sahib ŞAHVERDİYEV**

# Xəbərlər: hadisələr, faktlar

## Roma Papası Mərkəzi Afrika Respublikasında "Müqəddəs Qapı"nın açılışında iştirak edib



Afrikada səfərdə olan Roma Papası Fransisk Mərkəzi Afrika Respublikasının paytaxtı Bangidə "Müqəddəs Qapı"nın açılışında iştirak edib.

ANSA xəbər agentliyinin məlumatına görə, xeyli sayda insanın toplaşdığı tədbirdə Roma Papası etnik, siyasi və ya dini təhlükələrin aradan qaldırılmasını arzu edərək, dünyanın müxtəliflikləri arasında birlik və bərabərliyin saxlanılmasının vacibliyini vurğulayıb. O, Mərkəzi Afrikanın tarixində yeni bir mərhələnin başlanılması üçün göstərilən beynəlxalq və milli səyləri yüksək qiymətləndirib və bu bölgəyə sülh, ümid mesajları gətirdiyini bildirib.

## Filippində üç əcnəbini oğurlayanlardan biri saxlanılıb



Filippin polisi hərbi bölmələrin köməyi ilə "Əbu Sayyaf" terrorçu qruplaşmasının iki malayziyalının və bir Cənubi koreyalının oğurlanmasında şübhəli bilinən üzvünü saxlayıb. Bu barədə noyabrın 30-da "Star" qəzeti Filippin xüsusi xidmət orqanlarına istinadla məlumat yayıb. Əməliyyatın ötən həftənin sonunda ölkənin cənubunda müsəlmanların daha sıx yerləşdiyi Sulu adasındakı limanlardan birində keçirildiyi bildirilir. Hüquq mühafizə orqanları burada silah və hərbi sursatla dolu bir neçə anbar da aşkar ediblər.

Operativ məlumatlara görə, saxlanılan Səddam Caylani adlı şəxs Cənub-Şərqi Asiyada ən böyük və ən təhlükəli "Əbu Sayyaf" terrorçu qruplaşmasının lideri Əlhəbsi Misayın yaxın adamlarından biridir. Xüsusi xidmət orqanları yanvarın sonlarında oğurlanmış və cəsədi oktyabrın sonlarında aşkar edilmiş Koreya Respublikası vətəndaşının da məhz "Əbu Sayyaf" tərəfindən girov götürüldüyünü güman edir. Bundan əlavə, ekstremistlər mayda Malayziyanın iki vətəndaşını da oğurlayaraq, onların azad edilməsi üçün 650 min dollar istəmişdilər. Aparılan danışıqlar nəticəsində onlardan biri azad edilmişdi. İkinci girovun azad olunması ilə bağlı razılığın əldə edilməsinə baxmayaraq, terrorçular sonradan danışıqlardan imtina edərək onun başını kəsmişdilər.

## İngiltərəyə saxta "təcili yardım" maşını ilə 2,4 milyard dollarlıq narkotika keçirilib



Niderland qruplaşmasının üzvləri Böyük Britaniyaya saxta "təcili yardım" maşını ilə 2,4 milyard dollar həcmində yüzlərlə kiloqram narkotik vasitə keçirib.

Heroin, kokain və digər narkotik vasitələrin Böyük Britaniyanın müxtəlif nöqtələrinə - Esseks, London, Mançester, Mersisayd, Uest-Yorkşir və Midlends şəhərlərinə aparılması üçün saxta tibbi geyimlərdən və saxta xəstələrdən istifadə edilib.

Təhqiqat zamanı qaçaqmalçıların 2014-cü ilin əvvəlindən 2015-ci ilin ortalarınadək Britaniyaya azı 45 narkotik partiyasını keçirdikləri məlum olub.

Dəstə üzvlərini uzunmüddətli həbs cəzası gözləyir.

## Malidə sülhməramlıların bazasına hücum edilib



Malinin şimal-şərqində yerləşən Kidal şəhəri yaxınlığında naməlum qrup BMT sülhməramlılarının bazasına hücum edib.

Baza raket atəşinə məruz qalıb. Hadisə nəticəsində üç nəfər - iki qvineyalı sülhməramlı və bir mülki şəxs həlak olub, 14 nəfər yaralanıb. Qərbi Afrikada yerləşən Mali Respublikasının əsas gəlir mənbəyi qızıl hasilatı olsa da, o, dünyanın ən kasıb ölkələrindən biridir. Əhalisinin 90 faizi İslam dininə mənsubdur. Ölkənin şimal-şərq hissəsinə "Əl-Qaidə" təşkilatına bağlı qruplaşma nəzarət edir.

Xatırladaq ki, son illər Malidə vəziyyət xeyli gərginləşib. Noyabrın 20-də bir neçə yaraqlı ölkənin paytaxtı Bamakonun mərkəzində yerləşən otelə hücum edərək, aralarında xeyli xarici vətəndaşın da olduğu 170 nəfəri girov götürmüşdü. Terror aktı olan bu hadisə nəticəsində azı 27 nəfər, o cümlədən 6 Rusiya vətəndaşı həyatını itirib.

## Beşinci nəsil rabitə texnologiyasının ilk sınaqlarına başlanılacaq




Yaponiyanın "NTT DOCOMO" mobil rabitə operatoru İsveçin "Ericsson" şirkətinin yeni "5G Radio Prototypes" məhsullarının köməyi ilə beşinci nəsil rabitə texnologiyasının (5G) ilk sınaqlarına başlayacaq.

"5G Radio Prototypes" hazırda ABŞ, Yaponiya, Koreya Respublikası və İsveçin operator şəbəkələrində "5G" texnologiyalarının sınaqları üçün tətbiq edilən "Ericsson 5G Radio Test Bed" sınaq sistemlərini əvəz edəcək. "Ericsson 5G Radio Prototypes" hazırlanan zaman sınaq sistemindən istifadə təcrübəsi nəzərə alınıb. Belə ki, yeni məhsullar daha çox gücə malik olmaqla kiçik ölçülüdür. "5G" sistemlərinin 2020-ci ildə istifadəyə verilməsi, 2016-cı ildə isə kommersiya şəbəkələrində sınaqlarına başlanılması nəzərdə tutulur. Beşinci nəsil rabitə şəbəkəsinin bütün mobil şəbəkəyə təsir göstərəcəyi bildirilir. Bu səbəbdən operatorlar yeni texnologiyaların laboratoriya sınaqları ilə kifayətlənməyərək, hazırda fəaliyyət göstərən şəbəkələrdə sınaqlara böyük diqqət yetirirlər.

## Rusiya Türkiyəyə qarşı xüsusi iqtisadi sanksiyalar tətbiq edir



Rusiya Prezidenti Vladimir Putin Türkiyəyə qarşı xüsusi iqtisadi tədbirlər tətbiq edilməsi haqqında fərman imzalayıb. Bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

Fərmana əsasən, Türkiyədən Rusiyaya müəyyən malların gətirilməsinə qadağa və ya məhdudiyyət qoyulur. Qadağa və məhdudiyyətlər, həmçinin, türk şirkətlərinin fəaliyyətinə və Türkiyə vətəndaşlarının işə götürülməsinə də aiddir. İmzalanmış fərmanda V.Putin Türkiyə ilə vizasız rejim haqqında sazişin qüvvəsinin 2016-cı il yanvarın 1-dən etibarən birtərəfli qaydada dayandırılmasına qərar verib.

Sənəddə digər iqtisadi tədbirlər də nəzərdə tutulur.

**AZƏRTAC-ın**
**materialları əsasında**

# "Hərbçi-jurnalist münasibətlərinin tənzimlənməsi mütləqdir"

## Ekstremal şəraitdə işləyən media nümayəndələrinin təlimi başa çatdı

***Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı və Müdafiə Nazirliyi, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi, Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə həyata keçirilən "Dinc Dünya" Araşdırma Mərkəzinin müəllifi olduğu "Ekstremal situasiyalarda işləyən jurnalistlərin psixoloji və təcrübi öyrədilməsi" layihəsinin bir ay davam edən təlimləri keçən həftə sona çatdı. Keçirilən təlimlər barədə qəzetimizin əvvəlki saylarında ətraflı məlumatlar dərc edilib.***

Sonuncu debat günündə "Fövqəladə hallarda informasiya emalı, istehsalı, təlimatları mövzusunda" geniş söhbətlər aparıldı və digər vacib məsələlər ətrafında diskussiyalar keçirildi. Əvvəlcə Müdafiə nazirinin əmrinə əsasən, layihənin təşkili ilə bağlı yaradılan işçi qrupunun rəhbəri, Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı "Zabit-jurnalist ekstremal şərait üçbucağında psixoloji aspektlər" mövzusunda çıxış edərək müasir jurnalistikanın aktual məsələlərinə toxundu. Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafı üçün dövlət səviyyəsində zəruri tədbirlərin həyata keçirilməsindən bəhs edən polkovnik ordu quruculuğunun müxtəlif sahələrini işıqlandırmağa çalışan media qurumlarının əksəriyyətinin Müdafiə Nazirliyinin müvafiq strukturları ilə əlaqə saxladığını bildirdi: "Belə bir şəraitdə Silahlı Qüvvələrin nümayəndələrinin KİV-lə qarşılıqlı münasibətləri məsələsi mühüm əhəmiyyət kəsb edir və burada hərbçi-jurnalist münasibətlərinin tənzimlənməsi mütləq sayılır. Hərbi qulluqçu hərbi mövzuda yazan jurnalistlə ünsiyyət yaradarkən onunla necə işləməyi düzgün müəyyənləşdirməli və işin icrası bu sahənin mütəxəssis zabitinə tapşırılmalıdır. KİV-in ordu mövzusuna müraciət etməsi Silahlı Qüvvələr üzərində ictimai nəzarətin bir qolu kimi qəbul edilir. Ona görə də ordunun bütün qurumlarında məsul şəxslər öz səlahiyyətləri çərçivəsində medianı maraqlandıran suallara cavab verməyə borcludurlar". Polkovnik mövzuya aid edilən digər bilgiləri də jurnalistlərin nəzərinə çatdıraraq, informasiyanın toplanması və yayılması, analitik xarakterinə görə aydınlıq, dəqiqlik, konkretlik tələb etməsi, informasiyanın strateji taktiki xarakterinin nəzərə alınması, onun şəxsi heyətə və ictimaiyyətə tələb olunan hallarda çatdırılması məsələlərinə ayrı-ayrılıqda toxunaraq nəzəri-təcrübi qaydalar əsasında şərtləndirdi.



Sonra BDU-nun psixologiya elmləri üzrə fəlsəfə doktoru Rövşən Cavadov təlim-məşğələni "Fövqəladə halların xarakteristikası, ekstremal şəraitdə informasiya almağın və informasiya toplama zamanı döyüşçülərlə ünsiyyətin psixoloji aspektləri" adlı mühazirəsi ilə davam etdirdi.

Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Azər Həsrət beynəlxalq KİV təşkilatlarının fəaliyyəti barədə danışaraq onların məqsəd, vəzifə və funksiyalarının təhlilini verdi. Bundan başqa o, jurnalistlərin təhlükəsizliyi ilə məşğul olan beynəlxalq qurumların fəaliyyət qaydalarını, başlıca prinsiplərini və Beynəlxalq Mətbuat İnstitutunun tövsiyələrini diqqətə çatdırdı.

Müdavimlər hərbi mövzuda yazan peşəkar jurnalistlər Şöhrət Eyvazlının və Rəşad Süleymanovun çıxışlarını da maraqla dinlədilər. Onlar təcrübələrinə əsaslanaraq gənc həmkarlarına hərbi sahədən məlumatın əldə edilməsi və yayılmasında da vacib məqamlara diqqət yetirməyi məsləhət gördülər.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlahə Hüseynova təmsil etdiyi qurumun fəaliyyəti barədə söhbət açaraq, bu beynəlxalq humanitar təşkilatın ölkəmizdə apardığı işlərindən danışdı.

"Etnik konfliktlərin işıqlandırılması qaydaları" mövzusu üzrə mühazirə aparan BDU-nun professoru Qulu Məhərrəmli qeyd etdi ki, keçirilən monitorinqlərin sorğuları və cavabları göstərir ki, fəaliyyət zamanı ən ciddi problem jurnalistlərin istifadə etdiyi məlumatın mənbəyi ilə bağlıdır. Təcrübəli telejurnalist konfliktləri işıqlandırmağın ümumi qaydalarına toxunaraq öz tövsiyələrini diqqətə çatdırdı.

Təlimlərin sonuncu günü Azərbaycan Hərb Tarixi Muzeyinə ziyarət təşkil edildi. Müdavimlər burada zəngin eksponatlarla yaxından tanış oldular. Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə jurnalistlər qarşısında çıxış edərək, ulu babalarımızın döyüş ənənələrini yaşadan bu təşkilatın fəaliyyətindən geniş söhbət açdı.

Yekun toplantıda təlimi uğurla başa vuran jurnalistlərə diplomlar veriləcək, onlara layihənin bütün mövzularını əhatə edən "Ekstremal jurnalistin əl kitabı" hədiyyə olunacaq.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# "Səməd bəy Mehmandarov haqqında nə bilirik" mövzusunda viktorina



***Noyabrın 28-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində zabit ixtisas taborunun dinləyici zabitləri arasında "Səməd bəy Mehmandarov haqqında nə bilirik" mövzusunda viktorina keçirilib.***

Əvvəlcə ulu öndər Heydər Əliyevin və şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət himni səsləndirilib.

Bilik yarışını giriş sözü ilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Elvin Əzizov açıq elan edib.

- Bildiyimiz kimi, 16 oktyabr 2015-ci ildə görkəmli hərb xadimi general Səməd bəy Mehmandarovun anadan olmasının 160 illiyi tamam oub. O, döyüş meydanlarındakı peşəkarlığı və zabit şərəfinə hədsiz sədaqəti ilə Azərbaycan xalqının hərb salnaməsinə unudulmaz səhifələr yazıb. Sərkərdənin layiqli ömür yolu ordumuzun şəxsi heyətinə əsl örnəkdir, - deyə polkovnik-leytenant bildirib.

Viktorinanın aparıcısı əsgər Gülnarə Heydərova tədbir iştirakçılarını münsiflər heyətinin tərkibi və yarışmanın qaydaları ilə tanış edib.

Bilik yarışı dörd komanda arasında keçirilib. 3 turdan ibarət olan viktorinada 4 nəfər münsif iştirak edib. Tam artilleriya generalı Səməd bəy Mehmandarovun həyat və fəaliyyətini əhatə edən suallar verilib. 1-ci və 2-ci turda 10 sual, final turunda isə 5 sual səsləndirilib. Hər turun sonunda münsiflər heyəti verilən düzgün cavablara görə komandaların xallarını elan edib.

Finala çıxan "Rabitəçilər" və "Topçular" komandaları arasında gedən gərgin mübarizənin sonunda "Topçular" I yerə, "Rabitəçilər" II yerə, "Aslanlar" isə III yerə layiq görülüblər. Qaliblərə kubok və fəxri fərmanlar təqdim olunub.

Sonda məşhur hərb xadimi haqqında sənədli film nümayiş olunub.

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Bakı çempionatında fərqlənən gənclər mükafatlandırılıblar



Suraxanı rayonu Gənclər Evində payız çağırışına həsr olunan "Vətənin müdafiəsinə hazıram" devizi ilə keçirilən poliatlon çoxnövçülüyü üzrə Bakı çempionatında ikinci yeri tutan komanda üzvlərinin mükafatlandırma mərasimi keçirilib.

Mərasimdə idarənin baş məsləhətçisi Salman Əbdülov, Suraxanı rayon Gənclər və İdman İdarəsinin rəis müavini Elşən Atakişizadə, baş məsləhətçi Rəşid Heydərov, BŞGİBİ-nin aparıcı məsləhətçisi Cəlil Əlizadə, qalib komandanın üzvləri iştirak ediblər.

Çıxışlarda tədbirin çağırışaqədər və çağırışyaşlı gənclərin ümumi və fiziki hazırlıq səviyyələrinin müəyyən edilməsində, yüksəldilməsində, gənclərdə vətənpərvərlik ruhunun aşılanmasında mühüm rolu qeyd olunub.

Sonda qaliblər baş idarə tərəfindən müvafiq dərəcəli diplom, medal və xatirə hədiyyələri ilə təltif ediliblər.

## Paralimpiyaçı cüdoçularımızın Avropa çempionatında möhtəşəm qələbəsi



Azərbaycanın paralimpiyaçı cüdoçuları Portuqaliyanın Odivellas şəhərində keçirilən açıq Avropa çempionatında möhtəşəm qələbə qazanıblar.

"Rio-2016" Paralimpiya Oyunlarına reytinq xalı verən sonuncu yarış olan çempionatda komandamız 3-ü qızıl, 3-ü gümüş və 2-si bürünc olmaqla ümumilikdə 8 medal qazanıblar. Qızıl medalları komandamıza İlham Zəkiyev (+100), Ramil Qasımov (73 kq) və Bayram Mustafayev (66 kq) qazandırıblar. Səbinə Abdullayeva (57 kq), Rövşən Səfərov (81 kq) və Ramin İbrahimov (60 kq) çempionatda gümüş medalla kifayətlənməli olublar. Afaq Sultanova (63 kq) və Kənan Abdullaxanlı (100 kq) isə bürünc medallara layiq görülüblər. İlham Zəkiyev karyerasında altıncı dəfə Avropa çempionu adını qazanıb.

## Azərbaycan boksçuları gənclər arasında Avropa çempionatını üç medalla başa vurublar



Polşanın Kolobjek şəhərində keçirilən boks üzrə gənclər arasında Avropa çempionatında Azərbaycan idmançıları 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıblar.

Azərbaycan boksçusu Ruslan Rüstəmov (49 kq) yarımfinala qədər uğurla irəliləyib. Bu mərhələdə boksçumuzun rəqibi erməni idmançısı Alen Danielyan olub. Rüstəmov rəqibini məğlub edərək Avropa çempionatının finalına yüksəlib. Finalda güclü rəqiblər - irlandiyalı Stefan Makkenna ilə qarşılaşan R.Rüstəmov qalib gələrək Avropa çempionu adını qazanıb.

Elməddin İsmayılov (60 kq) isə yarımfinalda almaniyalı boksçu Denis Qaşi ilə qarşılaşıb. Gərgin keçən görüş Almaniya idmançısının qələbəsi ilə yekunlaşıb. Bununla da E.İsmayılov Avropa çempionatını bürünc medalla başa vurub. Digər təmsilçimiz İsmayıl Hüseynov (69 kq) yarımfinala qədər bütün rəqiblərini məğlub edərək həlledici mərhələyə yüksəlib. Finalda boksçumuz polşalı idmançı Sebastian Viktorzakla üz-üzə gəlib. Görüş İ.Hüseynovun qələbəsi ilə yekunlaşıb və o, finala adlayıb. Qızıl medal uğrunda görüşdə boksçumuz irlandiyalı Maykl Nevinle qarşılaşmalı olsa da, idmançımız zədə səbəbindən görüşə çıxa bilməyib.

Beləliklə, Azərbaycan komandası Avropa çempionatını 1 qızıl, 1 gümüş və 1 bürünc medalla başa vurub.

## Azərbaycan karateçisi Yaponiyada gümüş medal qazanıb



Karate üzrə Azərbaycan milli komandasının kapitanı Şahin Atamov (+84 kq) Yaponiyada Premyer Liqanın gümüş medalını qazanıb.

İdmançımız finalda İran milli komandasının favoritlərindən Səyad Gənczadə ilə (fərdi yarışlarda son dünya ikincisi və komanda yarışlarında çempion) üz-üzə gəlib. Görüşün əsas vaxtı heç-heçə bitsə də, beş hakimdən 3-ü qələbəni (xante ilə) rəqibə verib. Azərbaycan karateçisi isə fəxri kürsünün ikincisi olub. Bu medal Ş.Atamovun (şəxsi məşqçisi Şahin Xudaverdiyev, milli komandada məşqçisi Rəhman Hətəmov) 2015-ci il Premyer Liqalarında 3-cü gümüş mükafatıdır. Yanvarda Parisdə 2-ci yeri tutan Ş.Atamov fevralda Hollandiyanın Almere şəhərində analoji turniri də eyni nəticə ilə başa vurub. Bundan başqa, dünya reytinqində 5-ci olan karateçi Yaponiyada qazandığı gümüş medalla 3-cü pilləyə yüksəlib.

Qeyd edək ki, Okinavada Dünya Karate Federasiyasının (WKF) Premyer Liqa seriyasından ilin son nüfuzlu yarışında 38 ölkədən 207 idmançı iştirak edib. Turnirdə Azərbaycanı yalnız Şahin Atamov təmsil edib. Azərbaycan karateçilərinin növbəti Premyer Liqa turniri 2016-cı ilin yanvarında Parisdə keçirilməsi nəzərdə tutulur.

**AZƏRTAC-ın
materialları əsasında**

# Voleybolçu hərbi qulluqçularımız yarışdılar

***Əlahiddə Ümumqoşun Orduda "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan kütləvi idman tədbirləri müntəzəm davam etdirilir. Bu dəfə isə voleybol birinciliyi keçirilib.***



Naxçıvan şəhərində yerləşən İlham Əliyev adına Olimpiya İdman Kompleksində təşkil olunan birinciliyə Azərbaycan Respublikasının Dövlət himninin səslənidirilməsi ilə başlanılıb.

İdmançı hərbi qulluqçuların təlimatlandırılmasından sonra yarışlara start verilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdiyi voleybol birinciliyi olimpiya sistemi ilə keçirilib.

Voleybol idman növünün təbliği, təlim-məşqlərinin yekunu, güclü idmançı və komandaların müəyyən edilməsi məqsədi ilə təşkil olunan birincilikdə 15 komanda mübarizə aparıb.

Əlahiddə Ümumqoşun Ordunun fiziki hazırlıq və idman rəisi mayor Vahid Məmmədovun rəhbərliyi ilə keçirilən birinciliyə Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının hakimləri nəzarət ediblər. Yarışın baş hakimi Nazim Əliyev hərbi qulluqçuların hazırlıq səviyyələrini yüksək qiymətləndirib. "Hərbi qulluqçular peşəkar oyun nümayiş etdirirlər. Ona görə də qələbə uğrunda yarış tamaşaçıların alqışları altında, gərgin mübarizə şəraitində keçir", - deyə baş hakim bildirib.

Voleybol birinciliyinin yekununda layiqli yer tutanlar mükafatlandırılıb. Qaliblərin təltif edilməsi ənənəyə uyğun olaraq Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən həyata keçirilib. Beləliklə, hərbi qulluqçular arasında təşkil olunan və maraqlı məqamları ilə yadda qalan növbəti idman tədbiri də uğurla başa çatıb.

Mükafatlandırma mərasimindən sonra əsgərlərdən Sevindik Abdullayev, İsa Həsənov, Ülvü Hüseynov, kiçik çavuş Teyyub Məmmədov, kursant Sahil Əliyev söhbət zamanı belə yarışların onların birliyini və mübarizə əzmini artırmağa xidmət etdiyini vurğulayıblar.

Əlahiddə Ümumqoşun Ordu üzrə hərbi qulluqçular arasında idman yarışları və birinciliklərinin keçirilməsi iştirakçıların fiziki hazırlığına müsbət təsir göstərməklə bərabər, onlara qələbə əzmi də bəxş edir. Təbii ki, bütün bunlar da gələcəkdə əldə olunacaq daha böyük uğurlardan xəbər verir.

**Nəriman NƏCƏFOV,
"Azərbaycan Ordusu"**

*Düşüncələr*

# "Dolu"dan başlayan yolu görürəm

***Yazıçı Aqil Abbasın "Dolu" romanı çapdan çıxdığı gündən tənqidçilərin, ədəbiyyatşünasların diqqətini cəlb edib. Bu günə qədər roman haqqında dövri mətbuatda çox yazılıb, ekranda, efirdə çox danışılıb. Çünki "Dolu" Qarabağa, Qarabağ müharibəsinə həsr olunub. Əslində bu roman müəllifin müharibədə gördüklərinin, şahidi olduqlarının və müşahidə etdiklərinin məcmusudur, qısa və bədii xronikasıdır.***

Qarabağ müharibəsindən bəhs edən həm publisistik, həm də bədii əsərlərin ürəyimcə olanları da var, haqqında tənqidi fikir söylədiklərim də. Əsər haqqında fikir deyəndə, yazanda obyektiv olmalısan ki, söylədiklərinə, yazdıqlarına inansınlar.

Qarabağ müharibəsindən bəhs edən əsərlər sırasında məni ən çox özünə çəkən "Dolu" romanı oldu (rejissorların diqqətini cəlb edən əsərə eyni adlı film də çəkilib). Görəsən, həm romanın, həm də filmin belə maraqla qarşılanmasının sirri nədədir? Düşünürəm ki, bunun sirri əsərin obyektivliyində, hadisələrə real baxışında, baş verənləri öz rəngində təsvir etməsindədir. Görkəmli tənqidçi Belinskinin sözləri yadıma düşür: "Həqiqəti deməyin iki yolu var: dolayı və açıq". Müəllif ikinci yolu seçib. Hadisələri, oxucuya bəzəksiz-düzəksiz göstərib. Şəxsən əsərdə bəyəndiyim müsbət cəhət Qarabağ uğrunda vuruşan, döyüşən Azərbaycan oğullarının obrazlarının dolğunluğudur.

"Üstlərində göz yaşlarından başqa heç nəyi olmayan şəhid analarına!". Müəllif romanına bu sözləri epiqraf seçib. Əsər təbiət təsviri ilə başlayır. Ulduzlu, aylı bir gecədə dolu yağır. Bu dolu qara buludlardan yağan dolulardan deyil. Bu, ermənilərin şəhərlərimizə, kəndlərimizə yağdırdıqları odlu mərmilərdir. Bu mərmilər evləri yandırır, camaatı ev-eşiyindən didərgin salır və s. Adi, sadə bir təbiət təsviri ilə başlanan roman oxucusunun əlindən tutub onu qanlı hadisələrin içərilərinə, səngərlərə doğru aparır.

Əsərin ilk səhifələrini oxuyandan sonra burada baş verən hadisələrin mənə çox tanış olduğunu gördüm. Fikirləşdim ki, bu hadisələr bəlkə də çoxlarına bəllidir. Sonra düşündüm ki, yox, bütün bunların qələmə alınması, yazılması çox vacibdir. Çünki romanı gələcək nəsillər də oxuyacaq. Torpaqlarımızın nədən, necə işğal olunması ilə maraqlananda sualların bir çoxuna "Dolu" romanında cavab tapa biləcək. Bu, az məsələ deyil.

Romanda təsvir olunan hadisələrin, döyüş səhnələrinin çoxu mənə də tanışdır. Ötən illər ərzində əsgərlərin döyüş səhnələrini yetərincə müşahidə etmişəm. Kitabı oxuduqca bir anlıq həmin günlərə qayıdıram, o anları təzədən yaşayıram. Həmin günlərdə Aqil müəllim də yanımızda olub, bütün bunları öz gözləri ilə görüb və böyük ustalıqla qələmə alıb.

Əsərdə məğlubiyyətimizin səbəbləri də görsənir. Daxili çəkişmələr, əməliyyatların düzgün təşkil olunmaması və s. amillər ağ kağızda qara mürəkkəb kimi aydın görsənir. Qarabağ uğrunda döyüşən, vuruşan zabitlərin, əsgərlərin sonrakı taleyi, aqibəti komandir obrazında çox gözəl göstərilib. Səngər həyatı, döyüş meydanı, həbsxana, yenidən geriyə dönüş...

Romanın başqa əsərlərdən fərqli cəhətlərindən biri də müəllifin romanda təkcə zabit, əsgər obrazı yox, başqa-başqa obrazları ümumiləşdirməsidir. Bütün hadisələr Dünyanın Ən Varlı Şəhərində baş verir. Bu, müharibə gedən bütün şəhərlərin ümumiləşdirilmiş obrazıdır. Əsərdə başqa ümumiləşdirilmiş obrazlar da oxucuda maraq doğurur: "At Belində Olan Adam", "Səhiyyə Nazirinin Müavini", "Müdafiə Naziri", "Bordağa Bağlanmış Buğaya Dönən Məmurlar," "Katib" və başqa ümumiləşdirilmiş obrazlar baş verən hadisələrin mərkəzində dayanır.

Roman iki hissədən ibarətdir. Birinci hissə, əsasən, döyüşlərdən və döyüşçülərdən, ikinci hissə isə daha çox çadır şəhərciyində məskunlaşan qaçqınların dözülməz həyatından bəhs edir. Yurd-




yuvasından didərgin düşmüş adamlar doğma ocaqlarına qayıdacaqları günü həsrətlə, intizarla gözləyirlər.

Əsərdə rəğbətimi qazanan üç obraz var: Komandir, Drakon və Pələng. Təəssüf ki, üçünün də taleyi acı olur. Çünki o dövr çətin və mürəkkəb idi. Döyüşlərin getdiyi bir vaxtda komandir həbsxanaya düşür. Drakon və Pələng eyni döyüşdə şəhid olur. Əsərin qəhrəmanlarının ikisinin bir döyüşdə həlak olması kədərləndirici hadisədir. Romanı oxuduqca hiss edirsən ki, sanki müəllif öz qəhrəmanlarını öldürməyə tələsir. Bu tələskənlik olmasaydı oxucu onların igidliyini romanın sonuna qədər daha çox görər, daha çox sevərdi. Hər halda bu müəllifin öz yaradıcılıq metodudur, öz hüququdur.

Komandirin əsir düşmüş erməni qadınını azad etməsi də yaddaqalan epizoddur. Onun hərəkəti Azərbaycan zabitinin, Azərbaycan kişisinin mənəvi saflığının təsdiqidir. Bu, həm də azərbaycanlı əsirlərə, qız-gəlinlərə ağır işgəncələr verən qəddar ermənilərə müəllifin tərs silləsidir. Qarabağ müharibəsi mövzusunda yazılmış başqa nəsr əsərləri ilə müqayisədə "Dolu" romanında təsvir olunan döyüş səhnələri realdır, inandırıcıdır. Bir güllə ilə beş düşmən öldürmək mənzərələri burada yoxdu. Buna görə də roman oxucunu özünə çəkir.

Bir oxucu kimi mənim üçün ən təsirli epizodlardan biri də komandirin həbsxanadan çıxıb Dünyanın Ən Varlı Şəhərinə qayıtmasıdır. Bakıdan uzun yol gələn Komandir uğrunda döyüşdüyü doğma şəhərinə getmək, küçələri, məhəlləri yenidən görmək istəyir. Amma arzusu gözündə qalır. Xəndəkdən keçib irəli getmək istəyəndə burada qoyun-quzu otaran uşaqlar ona xəbərdarlıq edib deyirlər ki, əmi, qabağa getmə, oralar ermənilərindi. Komandir isə Dünyanın Ən Varlı Şəhərinə ayaq basmağa can atır. Doğulduğu torpaqdan güc-qüvvət almaq, gözəlliyinə tamaşa eləmək, bir ovuc suyunu içib ürəyini sərinlətmək, havasını ciyərlərinə çəkmək istəyir. Göz yaşları içində uzaq məsafədən doğma şəhərinə həsrətlə tamaşa edir. Onun xarabalıqlarını görəndə kövrəlir, qəlbi od tutub yanır. Çayxanada ona süzülən çayı da içə bilmir. Dünyanın Ən Varlı Şəhərini azad etməyin yollarını düşünür.

Dolu yağması ilə başlayan roman elə bu mənzərə ilə də tamamlanır. Təbiidir ki, bu dolu hər gün ermənilərin atdığı güllələrdir, yağdırdıqları mərmilərdir. Müəllif bu jesti ilə müharibənin hələ də bitmədiyini xatırladır. Aylı, ulduzlu gecələrdə dolu yağmasına hamının cavab verməyə hazır olmağını tövsiyə edir.

"Yazıçı aşılamaq istədiyi fikrə yüksək nöqtədən yanaşmağı bacarmalıdır. Əks hallarda həyatın, tarixin sürətli axını onu silib aparacaq". Bu fikirlər dahi rus yazıçısı Tolstoya məxsusdur. Romanı oxuduqca hiss olunur ki, Aqil Abbas dahi yazıçının dediyi kimi, əsərinə yüksək nöqtədən baxıb. Belə olmasaydı, roman oxucuda güclü təsir oyatmazdı.

Təbiidir ki, "Dolu" romanı Qarabağ müharibəsindən bəhs edən sonuncu roman olmayacaq. Bu yol açıqdır. Ümid edirik ki, gələcəkdə müharibədən bəhs edən və reallıqları əks etdirən yeni əsərlər yazılacaq. "Dolu"dan başlanan yollar daha da genişlənəcək. Bu roman mayak rolunu oynayacaq. Gənc yazarlara yol göstərəcək, istiqamət verəcək.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

**Baş redaktor müavini**
polkovnik-leytenant
Arif PƏNAHOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 1000
Nüsxə 4710